# Ədliyyə orqanlarında Gənclər Günü qeyd olunub

Azərbaycan gənclərinin birinci Forumunun 20 illiyi və 2 fevral - Gənclər Günü münasibətilə Ədliyyə Nazirliyində gənc ədliyyə əməkdaşları ilə görüş keçirilib.

Gənclər əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə əklil qoyub, ulu öndərin əziz xatirəsini dərin ehtiramla yad ediblər. Nazirlikdə davam edən tədbiri giriş sözü ilə açan ədliyyə nazirinin müavini Toğrul Musayev ölkəmizdə dövlətçilik amallarına, milli-mənəvi və bəşəri dəyərlərə sadiq Azərbaycan gəncliyinin formalaşdığını qeyd edib. Nazir müavini gənclərin inkişafında və təşkilatlanmasında dahi öndər Heydər Əliyevin misilsiz xidmətlərindən bəhs edib, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə gənclərin innovativ potensiallarının artırılması üçün hərtərəfli şəraitin yaradıldığını bildirib. Həmçinin dövlət başçısının bu ərəfədə bir qrup gənclə görüşü zamanı gənc nəslin xalqa, dövlətə bağlılığı, milli ruhda tərbiyə olunması barədə verdiyi tövsiyələr diqqətə çatdırılıb.

Çıxış edən gənclər hər zaman dövlət qayğısını hiss etdiklərini bildirərək Azərbaycan Prezidentinə dərin minnətdarlıqlarını ifadə edib, əməkdaşlarının təxminən yarısı gənclər olan ədliyyə orqanlarına şəffaf müsabiqə yolu ilə qulluğa qəbul olunduqlarını vurğulayıblar. Gənclər bundan sonra da cəmiyyətimizin inkişafına sədaqətlə xidmət edəcəklərini, ədliyyə işçisi kimi insanların hüquq və azadlıqlarının etibarlı təminatı və hüquqi maarifləndirmə işində səylərini əsirgəməyəcəklərini bildiriblər.

***AZƏRTAC***